

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 225 (21.377)

17 noyabr 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan xanlığının dövlət və döyüş bayraqlarının təqdimatı olmuşdur





Noyabrın 16-da Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində Naxçıvan xanlığının dövlət və döyüş bayraqlarının təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərasimdə çıxış edərək demişdir: Azərbaycanın Naxçıvan diyarı qədim tarixə malikdir. Burada əsrlər boyu böyük mədəniyyət formalaşmışdır. Biz bu gün Naxçıvanın qədim mədəniyyətindən danışarkən təkcə sənətkarlıq, əkinçilik, memarlıq mədəniyyətini yox, bununla yanaşı, zəngin dövlətçilik mədəniyyətini də nəzərdə tuturuq. Bu ərazidə müxtəlif dövrlərdə mükəmməl dövlət idarəçiliyi formaları meydana çıxmışdır. Buna misal olaraq Azərbaycan dövlətçilik tarixində mühüm mərhələ təşkil edən Naxçıvan xanlığını göstərmək olar. Naxçıvan xanlığı böyük bir əraziyə malik idi. Olduqca gərgin bir dövrdə yaranan bu dövlət qurumu Azərbaycanda inzibati idarəçiliyin formalaşmasına öz töhfəsini vermiş, xalqımıza məxsus tarixi ərazini, dili və milli mədəniyyəti qorumağı bacarmışdır.

Qeyd olunmuşdur ki, siyasi tariximizdəki müstəsna xidmətlərinə baxmayaraq, Naxçıvan xanlığının tarixi əvvəllər lazımi səviyyədə öyrənilməmişdir. Azərbaycan tarixinin, eləcə də Naxçıvan xanlığının tarixinin elmi mənbələr əsasında yenidən araşdırılması vacibliyini bir vəzifə kimi irəli sürən ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"İndi Azərbaycanın qədim diyarı kimi Naxçıvanın tarixini öyrənmək lazımdır. Mən daha çox istərdim ki, Naxçıvan xanlığının tarixi yazılsın. Naxçıvan xanlığının çox böyük tarixi var".*** 1996-cı ildən Naxçıvan Muxtar Respublikasında ulu öndərimizin müəyyənləşdirdiyi istiqamətlərdə tariximizin yenidən və obyektiv mənbələr əsasında araşdırılmasına başlandı. Həmin il keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumu qarşıya ciddi elmi proqram qoydu. Bu proqram mərhələ-mərhələ icra olundu. Həm ən qədim, həm orta əsrlər, həm də müasir tariximiz yenidən öyrənildi. Bu gün deyə bilərik ki, nəticələr uğurludur. Xüsusilə Naxçıvan xanlığının tarixi üzrə aparılan elmi araşdırmalar öz bəhrəsini vermişdir.

Ali Məclisin Sədri qeyd etmişdir ki, ötən müddət ərzində Naxçıvan xanlığının görkəmli şəxsiyyətləri, hərb xadimləri, əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair kitablar və xəritələr çap olunmuş, rus tədqiqatçılarının Naxçıvan xanlığı barədə kitabları Azərbaycan dilinə tərcümə edilərək ayrıca kitab halında oxucuların ixtiyarına verilmişdir. Yeni tədqiqatlar əsasında "Naxçıvan xanlığı" kitabı çap olunmuş, 2 hissəli "Naxçıvan xanlığı" sənədli filmi hazırlanmışdır. Naxçıvanda on səkkizinci əsrə aid Xan Sarayı əsaslı şəkildə yenidən qurularaq burada muzey yaradılmışdır. Bu dövrdə həyata keçirilən tədbirlərin bir istiqaməti də Naxçıvan xanlığının dövlət rəmzlərinin müəyyən olunması barədə təşəbbüsləri əhatə edirdi. Bununla bağlı bir sıra tədqiqatlar aparılmış, kitablar, elmi tezislər çap olunmuş, Kəngərli süvari dəstəsinin fəxri və döyüş bayrağı, eləcə də Naxçıvan bəy drujinasının döyüş bayrağı əslinə uyğun şəkildə bərpa edilərək nümayiş olunması üçün Naxçıvan Dövlət Bayraq Muzeyinə verilmişdir.

Ali Məclisin Sədri demişdir: Rusiyanın




Sankt-Peterburq şəhərindəki muzeylərdən tapılan Naxçıvan xanlığının dövlət və döyüş bayraqları bu ərazidə mövcud olmuş dövlətlərin rəmzlərinin müəyyən edilməsi sahəsində həyata keçirilən tədbirlərin davamıdır. Bu tapıntılar Azərbaycanın xanlıqlar dövrü dövlət atributlarının müəyyən edilməsi sahəsində tədqiqatlara mühüm elmi istiqamət verir. Bayrağın üzərindəki səkkizguşəli ulduzların dahi memar Əcəmi Naxçıvani yadigarı olan Möminə xatın türbəsi üzərindəki ulduzların üslubunda əks etdirilməsi, aypara təsviri və günəş rəngi bayrağa sahib olan xanlığın və bu ərazidə yaşayan əhalinin siyasi-ideoloji, tarixi-mənəvi və dini baxışlarını kompleks şəkildə təcəssüm etdirir.

Təsadüfi deyil ki, ilk dəfə dövlət bayrağı üzərində təsvir olunan bu inanclar və dövlətçilik simvolları üstündən yüz il keçəndən sonra ikinci dəfə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağında bir daha öz əksini tapmışdır. Ötən əsrin əvvəllərində Azərbaycanda Sovet hakimiyyəti bərqərar olunduqdan sonra endirilən üçrəngli, ay-ulduzlu bayrağımızı həmin əsrin sonunda Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qaldırmış, ona dövlət müstəqilliyinin simvolu kimi çox yüksək status vermişdir!

"Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və ali təhsil müəssisələri dövlətçilik tariximizin araşdırılması istiqamətində elmi tədqiqatları bundan sonra da davam etdirməlidirlər. Tariximizin öyrənilməsi ilə bağlı bütün təşəbbüslər bu günə qədər olduğu kimi, bundan sonra da müdafiə olunacaq və lazımi dəstək veriləcəkdir", – deyən Ali Məclisin Sədri Naxçıvan xanlığının bayraqlarının tədqiqi sahəsində fəaliyyətinə və faydalı əməkdaşlığa görə Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi Pərvin Gözəlova təşəkkürünü bildirmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru Hacıfəxrəddin Səfərli çıxış edərək demişdir ki, son illər muxtar respublikada əldə olunan inkişaf yolu elm sahəsində də özünü göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan müvafiq sərəncamlar elmi tədqiqatların əsas istiqamətlərini müəyyənləşdirmişdir. Nəticədə, 1996-2015-ci illərdə Azərbaycan tarixinin, arxeologiyasının, etnoqrafiyasının, epiqrafikasının müxtəlif problemləri ilə əlaqədar tədqiqatlar aparılmış, müxtəlif kitablar, monoqrafiyalar, məqalələr yazılmış, dissertasiyalar müdafiə edilmişdir. Ötən dövrdə Gəmiqaya abidələri kompleks şəkildə öyrənilmiş, muxtar respublika ərazisindəki tarix-mədəniyyət abidələri qeydə alınaraq pasportlaşdırılmış, bu abidələr əsasında Azərbaycan və ingilis dillərində "Naxçıvan abidələri ensiklopediyası" hazırlanmış, "Naxçıvan tarixi atlası" işıq üzü görmüşdür. Ali Məclis Sədrinin 2012-ci il 6 avqust tarixli Sərəncamına əsasən 3 cildlik "Naxçıvan tarixi"nin hazırlanması da muxtar respublikada tarix elmi sahəsində əldə edilən uğurlar sırasında mühüm əhəmiyyət kəsb edir.

Qeyd olunmuşdur ki, bu gün muxtar respublikada tarixi-mədəni irsin qorunub yaşadılması ilə yanaşı, dövlət rəmzlərinə də hörmət və ehtiramla yanaşılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 noyabr tarixli Sərəncamına əsasən noyabrın 17-nin Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd olunması bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu gün Naxçıvan ərazisində mövcud olmuş qədim dövlətlərin bayraqları elmi şəkildə öyrənilərək üzə çıxarılır. Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlovun axtarışları nəticəsində Rusiya muzeylərindən, xüsusilə Sankt-Peterburq şəhərindəki muzeylərdən Naxçıvan xanlığının dövlət və döyüş bayraqları aşkar olunmuşdur. Hacıfəxrəddin Səfərli Naxçıvan Muxtar Respublikasının tarixinin araşdırılmasına və zənginləşdirilməsinə göstərdiyi diqqət və qayğıya görə muxtar respublika ziyalıları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov demişdir ki, Naxçıvan xanlığının bayraqlarının 187 il sonra Naxçıvana qaytarılması və təqdimat mərasiminin keçirilməsi tarixi hadisədir. Aşkar olunmuş yeni bayraqlar Azərbaycanın dövlətçilik ənənələrinin, rəmzlərinin tarixi köklərinin əyani sübutudur. Bu bayraqların tapılması Naxçıvan xanlığının tarixinin öyrənilməsinə mühüm töhfələr verəcək, xalqımızın tarixi-mədəni irsinə qarşı aparılan əks-tədqiqat təşəbbüslərinə son qoyacaqdır. Pərvin Gözəlov apardığı elmi-tədqiqat işlərinə verdiyi yüksək qiymətə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, bu istiqamətdə tədqiqatlarını davam etdirəcəyini bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 16 noyabr tarixli Sərəncamı ilə Pərvin Gözəlov Naxçıvan xanlığının bayraqlarının tədqiqi sahəsində fəaliyyətinə görə "Naxçıvan Muxtar Respublikasının 90 illiyi" yubiley qızıl medalı ilə təltif edilmişdir.

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları Naxçıvan xanlığının dövlət və döyüş bayraqlarına baxmışlar.

Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov məlumat vermişdir ki, Naxçıvan xanlığının döyüş bayrağı 1812-ci ilin 19-20 oktyabrında Aslandüz döyüşündə general-mayor Pyotr Kotlyarevski tərəfindən qənimət kimi götürülmüşdür. Dövlət bayrağı isə 1827-ci ildə xanlığın işğalı zamanı general Paskeviç tərəfindən qənimət kimi götürülmüş və bu günə qədər müxtəlif xarici muzeylərin fondlarında saxlanılmışdır.

Qızılı ipəkdən hazırlanmış və bir-birinə üfüqi şəkildə tikilmiş üç parçadan ibarət olan dövlət bayrağının eni 144, uzunluğu 178 santimetrdir. Bayrağın üzərində 6 ədəd səkkizguşəli ulduz və nəbati elementlər əks edilmişdir. Üst zolağın üzərində qızılı saplarla ərəb qrafikası ilə "Qurani-Kərim"in "Səff" surəsindəki "Allah dərgahından kömək, qələbə yaxındır, möminlərə müjdə ver,

Ardı 2-ci səhifədə



Naxçıvan xanlığının Dövlət bayrağı (1747-1828-ci illər)



Naxçıvan xanlığının döyüş bayrağı

Ya Mühəmməd" ayəsi həkk edilmişdir.

Döyüş bayrağının uzunluğu 145, eni isə 159 santimetrdir. Moruğu rəngli bayrağın yuxarı sağ tərəfində yerləşən mavi rəngli lövhəcikdə "Bismillah", sol tərəfində "Qurani-Kərim"dən "əl-Fəth", bir qədər aşağıda isə "əl-Bəqərə" surələrinin bir hissəsi yazılmışdır.

Ali Məclisin Sədri Naxçıvanın dövlətçilik tarixi ilə bağlı elmi tədqiqatların aparılması zərurətinə diqqəti çəkərək demişdir: Naxçıvan xanlığı Azərbaycan dövlətçilik tarixində mühüm mərhələ təşkil edir. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsini yaradarkən bu məsələni xüsusi qeyd etmiş, Naxçıvan xanlığının tarixinin öyrənilməsi barədə tapşırıqlar vermişdi. Ötən müddətdə bu sahədə elmi-tədqiqat işləri aparılmış, kitablar çap olunmuş, üçcildlik "Naxçıvan tarixi" kitabı hazırlanmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin əməkdaşları, xüsusilə tarixçi alimlər bu sahədəki fəaliyyəti davam etdirməli, Naxçıvan tarixi ilə bağlı elmi araşdırmalar aparılmalı, arxeoloji qazıntılar və qədim əlyazmalar əsasında yeni tarixi faktlar üzə çıxarılmalıdır.

Ali Məclisin Sədri demişdir: Hər bir dövlət tarix üzərində qurulur. Çünki keçmişi olmayan xalqın gələcəyi də yoxdur. Bu gün biz tariximizi tədqiq etməklə yanaşı, həm də onu təbliğ etməli, gənc nəslə öyrətməli, onları əsl vətəndaş kimi böyütməliyik. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə məktəb-muzey şəbəkəsini təkmilləşdirməli, Naxçıvan tarixi ilə bağlı elektron dərsliklər hazırlanaraq ümumtəhsil məktəblərinin tədris proqramına daxil edilməlidir. Teleradiolar və qəzetlər bu sahədə fəaliyyətlərini gücləndirməli, Naxçıvan tarixinə, dövlətçilik ənənələrinə həsr olunmuş sistemli və təhlilli materiallar hazırlanmalıdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Heydər Əliyev Muzeyində elmi-praktik konfrans



Noyabrın 16-da Heydər Əliyev Muzeyində "Ümummilli lider Heydər Əliyev və Azərbaycan bayrağı" adlı elmi-praktik konfrans keçirilmişdir. Konfransı muzeyin direktoru Ramil Orucəliyev açaraq "Naxçıvanda ucaldılan Dövlət Bayrağı" mövzusunda məruzə ilə çıxış etmişdir.

Bildirilmişdir ki, XX əsrin 90-cı illərində Azərbaycanda demokratik proseslərin önündə gedən Naxçıvan doğma Azərbaycanımızın gələcəkdə müstəqil, azad bir dövlət kimi yaşaması üçün öz qəti iradəsini göstərərək müstəqillik tariximizdə əvəzsiz rol oynamışdır. Dövlət müstəqilliyimizin bərpasına məhz 17 noyabr 1990-cı ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda başlanmışdır. Xüsusi idarəçilik və təşkilatçılıq qabiliyyətinə, böyük dövlətçilik təcrübəsinə malik olan, dünya siyasətçiləri içərisində öz dəst-xətti ilə seçilən ümummilli lider Heydər Əliyevin 22 iyul 1990-cı ildə Naxçıvana tarixi qayıdışı xalq tərəfindən böyük sevinclə qarşılanmışdır. 1990-cı il sentyabrın 30-da keçirilən seçkilərdə Onun Azərbaycan və Naxçıvan Ali Sovetinə Xalq deputatı seçilməsi xalqın Heydər Əliyev dühasına olan inamının təzahürü idi.

Qeyd olunmuşdur ki, 17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin 12-ci çağırış birinci sessiyasında ümummilli liderimizin rəhbərliyi ilə Azərbaycan milli dövlətçiliyinin bərpası istiqamətində tarixi qərarlar qəbul olunmuşdur. Həmin sessiyaya sədrlik edən ulu öndər Heydər Əliyev deyirdi: ***"... Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli milli bayrağını Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edirik və Azərbaycanın ali hakimiyyət orqanına bunu çatdırırıq. Eyni zamanda Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qoyuruq ki, Azərbaycan Respublikasının Dövlət rəmzləri haqqında qərar qəbul etsin..."***

Vurğulanmışdır ki, bu qərarın qəbulundan sonra üçrəngli bayraq zala gətirilmiş, beləliklə, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 70 il əvvəl endirilmiş ay-ulduzlu üçrəngli bayrağını gələcək müstəqil Azərbaycanın Dövlət Bayrağına çevirmişdir.

Ramil Orucəliyev bildirmişdir ki, Dövlət Bayrağının rəsmi olaraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qəbul olunmasını və bu günün dövlətçilik tariximizdəki əhəmiyyətini nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 17 noyabr 2014-cü il tarixdə "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən, hər il noyabr ayının 17-si Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd olunur.

Konfransda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərlinin "Naxçıvan Muxtar Respublikasının Dövlət bayraqları" və Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimovun "Bayrağımız qürur mənbəyimizdir" mövzularında çıxışları olmuşdur.

Sonda tədbir iştirakçıları "Əsrə bərabər üç il" filminə baxmış, Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanış olmuşlar.

## Ümumtəhsil müəssisələri müəllimləri üçün seminar keçirilir



*Noyabrın 16-da Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birgə Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində çalışan biologiya, kimya və fizika fənlərini tədris edən müəllimlər üçün həftə sonuna qədər davam edəcək seminar öz işinə başlayıb.*

Tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq təhsilin inkişafından danışıb.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev tədbirdə çıxış edərək vurğulayıb ki, bu gün muxtar respublikamızda təhsilə diqqət və qayğı ən yüksək səviyyədədir. Yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, onların yüksək maddi-texniki baza və ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunması, eyni zamanda müəllimlərin fəaliyyəti üçün hərtərəfli şəraitin yaradılması muxtar respublikada təhsilə göstərilən qayğının bariz nümunəsidir.

Nazir ölkəmizin gələcəyi olan gənclərin dövlətçiliyimizə sədaqət ruhunda böyüməələri, yaxşı təhsil alaraq ölkəmizə və xalqımıza layiqli vətəndaş kimi yetişmələri üçün müəllimlərin üzərinə düşən vəzifələrdən danışıb.

Vurğulanıb ki, ümumtəhsil məktəblərində kimya, biologiya, fizika laboratoriyalarında müasir tədris və təcrübə avadanlıqlarının qoyulması şagirdlərin dəqiq elmlərə olan marağını artırır. Bu laboratoriyalardan düzgün istifadə isə həmin fənləri tədris edən müəllimlərdən asılıdır.

Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid çıxış edərək belə seminarların müəllimlərin nəzəri biliklərinin artırılmasına xidmət etdiyini, ali və orta ümumtəhsil məktəb müəllimləri arasında elmi mübadilə baxımından faydalı olduğunu bildirib.

Sonra seminarın ilk dərsi öz işinə başlayıb. Əvvəlcə müəllimlər Naxçıvan Dövlət Universitetinin fizika, kimya və biologiya laboratoriyalarında əyani tədris vasitələri və elektron təcrübə avadanlıqları ilə tanış olublar.

Qeyd edək ki, biologiya, kimya və fizika fənlərini tədris edən müəllimlər üçün "Biologiya dərslərində Zərdabi irsindən istifadə", "Biologiyanın tədrisində əsas tərbiyəvi amillər – tədrisin tərbiyəvi əhəmiyyəti", "Şagirdlərdə torpağa, ətraf mühitə məhəbbət hislərinin aşılanması", "Kimyanın tədrisi prosesində şagirdlərdə ekoloji dünyagörüşün formalaşdırılması", "Kimyanın tədrisi prosesində fəndaxili və fənlərarası əlaqənin əhəmiyyəti", "Ağırlıq qüvvəsinin təsiri altında hərəkət", "Bucaq altında atılmış cismin hərəkəti", "Arximed qüvvəsi. Üzmə şərtləri" və digər mövzularda seminarlar keçiriləcək.

## Beynəlxalq Tolerantlıq Günü qeyd edilib

*Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsində 16 noyabr – Beynəlxalq Tolerantlıq Günü münasibətilə tədbir keçirilib.*

Muxtar respublikada fəaliyyət göstərən dini icma sədrlərinin və din xadimlərinin iştirak etdiyi tədbiri giriş sözü ilə idarənin rəisi Vüqar Babayev açaraq günün əhəmiyyətindən danışıb.

Qeyd edilib ki, 16 noyabr 1995-ci il tarixdə YUNESKO-ya üzv dövlətlər tolerantlıq prinsipləri haqqında Bəyannamə qəbul ediblər. 1996-cı ildən BMT-yə üzv ölkələr bu günü Beynəlxalq Tolerantlıq Günü kimi qeyd edirlər. Tolerantlıq insan azadlıqları və hüquqlarının təsdiqi, plüralizm və demokratiya əsasında formalaşır. Onun üçün həm də irqçilik, ksenofobiya, dini dözümsüzlük, terror və ekstremizmin qəbul edilməməsi xarakterikdir. Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Heç vaxt ölkəmizdə milli, yaxud dini zəmində ayrı-seçkilik olmayıb, yoxdur və olmayacaq.

Vurğulanıb ki, müxtəlif dinlərin və mədəniyyətlərin mənsubları arasındakı əlaqələr, dialoq bəşər sivilizasiyasının inkişafı, müxtəlif mədəniyyətlərin qorunub təkmilləşməsi üçün əsas amillərdəndir. Tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsi bu baxımdan nümunə sayıla bilər. Ona görə də bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsinin Azərbaycan olduğunu əminliklə qeyd edə bilərik. Ənənə halına gələn tolerantlıq Azərbaycanın milli sərvəti olaraq qəbul edilir. Ölkədə formalaşmış tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən gözəl bir ənənəyə çevrilib. Bu, Əsas Qanunda da öz əksini tapıb. Konstitusiyanın 48-ci maddəsinə əsasən, hər kəsin vicdan azadlığı vardır. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz. Azərbaycanda tarixən dini tolerantlıq mədəniyyətinin yüksək olduğunu dəfələrlə həm dinşünas alimlər, həm də digər dinlərin nümayəndələri etiraf etmişlər. Azərbaycan çox konfessiyalı bir ölkədir və burada müxtəlif dini və mədəni abidələr mövcuddur.

Tədbirdə din xadimlərindən Nəbi Salahov, Allahverdi Ocaqquliyev çıxış edərək qeyd ediblər ki, son illərdə Böyük İpək Yolu üzərində yerləşən Naxçıvan Muxtar Respublikasında müxtəlif dinlərə sitayiş edənlərə qarşı unikal dözümlülük mühiti formalaşdırılıb. Ümumiyyətlə, müstəqillik illərində ümumbəşəri mənəvi dəyərlərin mənimsənilməsi istiqamətində görülən işlər muxtar respublikanı Azərbaycanın nümunəvi regionlarından birinə çevirib.

**Xəbərlər şöbəsi**

# Üçrəngli Azərbaycan bayrağı Naxçıvanda əbədi yüksəkliyə qaldırılmışdır

**Ulu öndər Heydər ƏLİYEV:** ***Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ kommunist partiyası da var idi, Sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından “sovet sosialist” sözləri çıxarılmalıdır. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunmalıdır – milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq.***



17 noyabr Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günüdür

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında” 2014-cü il 17 noyabr tarixli Sərəncamına əsasən, hər il noyabr ayının 17-si Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.***

Dövlətçilik ənənələri hələ qədim dövrlərdə mövcud olmuş etnik-siyasi özünütəşkil mədəniyyətinə söykənən xalqımızın bu gün müstəqil bayrağa malik olması onun mənəvi haqqıdır. Bayrağımızı hər bir azərbaycanlının qürur mənbəyinə çevirən də bu müqəddəs rəmzin xalqımızın mübarizlik ruhunun simvolu olmasıdır. Bu ruh Azərbaycan xalqının yenilməz mənəviyyatının ən canlı və ən şanlı təcəssümüdür. Məhz mübarizlik və yenilməzlik ruhu sayəsində tarixin bütün dönəmlərində həm də qədim Naxçıvanın timsalında Azərbaycan dövlətçiliyi öz kökləri ilə keçmişinə bağlı olmuş, tarixi ilə birgə yaşamağı, keçmişi ilə bu gününün vəhdətini yaratmağı bacarmışdır. Ona görə də dövlətçiliyimiz milli siyasət və ideologiyanın ən mühüm simvolu olan tarixi bayraq ənənəsində də özünün maddi, mənəvi və siyasi mədəniyyətinin əsas özəlliklərini, başlıcası isə ölməz milli ruhunu daim yaşatmaqdadır. Qürurla deyə bilərik ki, tarixin bir çox dönəmlərində Naxçıvan milli-ideoloji məsələlərdə Azərbaycan dövlətçiliyinin dayağı olmuş, dövlətçiliyimizin əsas atributlarından biri olan üçrəngli, aylı-ulduzlu bayrağımız tarixdə ikinci dəfə məhz Naxçıvanda yüksəldilmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında dövlət atributlarına hörmət və ehtiram keçmişdə də, bu gün də yüksək səviyyədədir. Bunun bir səbəbi də şərəfli tariximiz ilə bağlıdır. Beşminillik şəhər mədəniyyəti tarixinə malik Naxçıvan dünya sivilizasiyasına möhtəşəm mədəniyyət nümunələri ilə yanaşı, yüzillər boyu formalaşmış böyük dövlətçilik ənənələrini də miras qoymuşdur. Onuncu əsrdə “Naxçıvan şahlığı”, on ikinci əsrdə isə Azərbaycan Atabəylər dövləti yaranmışdır. On səkkizinci əsrdə Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı isə inzibati idarəçiliyin formalaşmasına xüsusi töhfə vermişdir. İyirminci əsrin əvvəllərində Naxçıvanın müdafiə qabiliyyətinin möhkəmlənməsində və tarixi ərazisinin qorunmasında mühüm xidmətlər göstərmiş, 1 milyondan çox əhaliyə malik olan Araz-Türk Respublikası da tarixi köklərimizdən gələn, Naxçıvan xanlığı dönəmində yeni idarəçilik meyarları ilə zənginləşən dövlətçilik ənənələrimizin əsasında qurulmuşdur.

Qeyd etməliyik ki, xanlıqlar dövrü Azərbaycanın milli dövlətçilik tarixində özünəməxsus yer tutur. Ulu öndərimiz Heydər Əliyev böyük uzaqgörənliklə milli dövlətçilik ənənələrimizin öyrənilməsində Azərbaycan tarixinin, o cümlədən Naxçıvan xanlığının tarixinin yenidən tədqiq edilib dəyərləndirilməsini əhəmiyyətli vəzifə hesab edərək demişdir: ***“İndi Azərbaycanın qədim diyarı kimi Naxçıvanın tarixini öyrənmək... lazımdır. Məsələn, mən daha çox istərdim ki, Naxçıvan xanlığının tarixi yazılsın. Naxçıvan xanlığının çox böyük tarixi var”.***

Son illərdə Azərbaycan xanlıqları içərisində nisbətən daha çox tədqiq olunan Naxçıvan xanlığına dair yeni kitablar, orijinal tədqiqat materiallarının meydana çıxması, ümumiyyətlə, milli dövlətçiliyin öyrənilməsi, təbliğ edilməsi baxımından da mühüm əhəmiyyətə malikdir. Bununla yanaşı, son illərdə Naxçıvan xanlığının dövlət bayrağının müəyyən edilməsi və üzə çıxarılması sahəsində də axtarışların aparılması zərurəti meydana çıxmışdır. Bu istiqamətdə Bakı, Tiflis, Ankara, Moskva və Sankt-Peterburq şəhərlərindəki arxivlərdə, muzeylərdə və kitabxanalarda müxtəlif elmi axtarışlar aparılmışdır. Nəhayət, ilk dəfə olaraq Naxçıvan xanlığına aid iki bayraq müəyyən edilmiş və üzə çıxarılmışdır. Rusiya Federasiyasının Sankt-Peterburq şəhərindəki Dövlət Ermitaj Muzeyində və Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb Tarixi muzeylərinin bayraq fondlarında aşkar edilən həmin bayraqlar geniş mənada Azərbaycanın milli dövlətçilik tarixinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bayraqların üzərindəki təsvirlər Naxçıvan xanlığının hərbi-siyasi mövqeyini, strategiyasını tam şəkildə ifadə edir. Bu bayraqlar Naxçıvan xanlığının tarixini öyrənmək, xanlığın hərbi-siyasi hədəflərini, ideologiyasını müəyyən etmək baxımından da əhəmiyyətlidir.

Qədim diyarımızın ən qiymətli sərvətlərindən biri də dövlətçilik ənənələrinin davamı olaraq formalaşan Naxçıvanın muxtariyyətidir. Qeyd etməliyik ki, Naxçıvan Muxtar Respublikası milli mənsubiyyətə görə yox, 1918-1924-cü illərdə cərəyan edən daxili və xarici amillərin təsiri altında yaranmışdır. Naxçıvana muxtariyyət verilməmişdir, əksinə, naxçıvanlılar bu muxtariyyəti qazanmışdılar. Naxçıvanın muxtariyyəti ermənilərə qarşı silahlı mübarizə cəbhəsində qazanıldığı kimi, böyük dövlətlərin siyasi oyunlarına qarşı diplomatik mübarizə cəbhəsində də qazanılmışdır.

Naxçıvan Muxtar Respublikası yarandığı vaxtdan konstitusion səviyyədə özünün atributlarına, o cümlədən Dövlət Bayrağına malik olmuşdur. 1924-cü ildə qəbul edilmiş “Naxçıvan Sosialist Sovet Respublikası haqqında Əsasnamə”də, Naxçıvan SSR-in 1926-cı, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 1937-ci və 1978-ci il konstitusiyalarında muxtariyyətin Dövlət gerbi və Dövlət Bayrağı haqqında hüquqi müddəalar olmuş, onların təsvirləri verilmişdir. İlk dəfə olaraq 1998-ci il Konstitusiyasında Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı və gerbi ilə yanaşı, Dövlət Himni də təsbit edilmişdir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 10-cu maddəsində qeyd olunur ki: *“Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət Bayrağı, gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir”.*

Naxçıvanın muxtariyyətə malik olması Azərbaycan dövlətçiliyinin inkişafı, tarixi ənənələrin qorunub yaşadılması istiqamətində atılacaq növbəti əsaslı addımlar üçün də zəmin hazırlamışdır. Belə ki, Naxçıvanın muxtar dövlət olması 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə müstəqil respublikamızın üçrəngli bayrağının muxtar respublikanın Dövlət Bayrağı kimi qəbul edilməsi qarşısında heç bir siyasi-hüquqi maneənin olmamasına şərait yaratmışdır. Beləliklə, müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğu prosesi Naxçıvandan başlanılmışdır. Ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin sessiyasında böyük dövlət xadiminin təşəbbüsü ilə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunması təklif edilmişdir.

Dahi şəxsiyyətin özünün işləyib hazırladığı və Ali Məclisdə yekdilliklə qəbul olunan “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” tarixi Qərarda deyilirdi:

“Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

*“1. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2. Naxçıvan Muxtar Respublikasının digər Dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının bütövlükdə Azərbaycan SSR-in Dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin”.*

Bundan sonra yeni qəbul olunmuş Dövlət Bayrağı zala gətirilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin 70 il əvvəl endirilmiş ay-ulduzlu üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilmişdir. Ulu öndər sonralar bu barədə demişdir: ***“Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ kommunist partiyası da var idi, Sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından “sovet sosialist” sözləri çıxarılmalıdır. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunmalıdır – milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq”.***

Müstəqilliyimizin bərpasından keçən dövr ərzində ölkəmizdə milli atributlarımıza hər zaman böyük sevgi ilə yanaşılmışdır. Dövlətçiliyimizin, milli dəyərlərimizin daşıyıcısı olan müqəddəs bayrağımıza ümummilli ehtiramın formalaşdırılması isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən milli siyasətin aparıcı istiqamətidir. Bayrağımıza olan ümummilli sevgi və ehtiram 2007-ci ildə paytaxt Bakı şəhərində Bayraq Meydanının yaradılması ideyasının reallaşdırılmasına gətirib çıxardı. Ölkə başçısının Azərbaycan bayrağının ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildiyi gündə – 2009-cu il noyabrın 17-də imzaladığı tarixi Sərəncam ilə təsis edilmiş Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü müqəddəs bayrağımıza, tarixi keçmişimizə və mənəvi-siyasi dəyərlərimizə, Naxçıvanda formalaşdırılan tarixi dövlətçilik ənənələrinə dövlət səviyyəsində olan diqqət və ehtiramın ən yüksək səviyyədə göstəricisidir.

Azərbaycanın hər bir regionunda bayraq meydanlarının yaradılması ənənəsinin əsası qoyulmuşdur. Dövlət başçısı 2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində demişdir: ***“Bayraq Meydanının yaradılması Azərbaycanın gücünü, Azərbaycan xalqının öz dövlətinə sevgisini, dövlət rəmzlərimizə ehtiramımızı göstərir…”***

Çoxəsrlik dövlətçilik tariximizdə qəbul olunmuş rəmzlərin, rəsmi şəkildə istifadə edilmiş bayraqların bütöv bir sistem halında tədqiq edilməsi milli ideologiyamızın əsasını təşkil edən Azərbaycançılıq ideyasının tarixi köklərini və mahiyyətini müəyyən etmək, aydınlaşdırmaq və əsaslandırmaq üçün əvəzsiz mənbədir və böyük əhəmiyyətə malikdir. Bu mənada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” 2014-cü il avqustun 22-də imzaladığı Sərəncam böyük tarixi əhəmiyyətə malikdir.

Naxçıvan şəhərində yaradılan və ötən il Azərbaycan dövlətçiliyi üçün tarixi əhəmiyyət kəsb edən bir gündə – noyabrın 17-də Dövlət Bayrağı Meydanı və Muzeyinin açılış mərasiminin keçirilməsi də ulu öndərimiz Heydər Əliyevin yoluna sədaqətin, sevginin təzahürü idi. Dövlət Bayrağı Meydanı və Muzeyinin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Dövlətçilik tariximizdə mühüm yer tutan dövlət rəmzləri və bayraqlar bir tərəfdən nadir dövlətçilik irsinin varisləri kimi bizdə iftixar hissi doğurursa, digər tərəfdən Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə də geniş imkanlar yaradır. Naxçıvan şəhərində yaradılan Dövlət Bayrağı Meydanı və Muzeyi bu baxımdan mühüm əhəmiyyətə malik olacaqdır”.***

***Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. Odur ki, özünütəsdiq simvolu olan bayraq bütün dünyada qürur və güvənc yeri sayılır. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin, təfəkkür və düşüncə tərzinin ən real ifadəsidir. Məhz bu baxımdan xalqımızın azadlığını, suverenliyini, öz istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini tərənnüm edən üçrəngli bayrağımız milli qürurumuzdur. Biz noyabrın 17-ni Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd etməklə bir daha bu qüruru, fəxarəti yaşayırıq.***

**“Şərq qapısı”**

# Azərbaycan bayrağı



Seyr etməkdən doymuram
Türkün qədim rəngini.
Özündə cəm etmisən
Yurdumun ahəngini –
Azərbaycan bayrağı!

Sən ey mavi göylərin
Üçrəngli göy qurşağı.
Uğrunda can verərəm
Sən ucalan torpağın –
Azərbaycan bayrağı!

Sən canlıdan canlısan
Nəfəsin var, səsin var!
Dünyanın hər yerindən
Görünmək qüdrətin var –
Azərbaycan bayrağı!

Kölgəndən qorxanları
Yandırdı için-için.
Ulu HEYDƏR ucaltdı
Səni – yaşatmaq üçün
Azərbaycan bayrağı!

**Asim YADİGAR**

Hər xalqa ən ali dəyərlərini özündə ehtiva edən bayrağını dalğalandıra bilmək nəsib olmur. Bu baxımdan bizim xalqımız xoşbəxt xalqdır. Azərbaycan xalqının bu gün müstəqil bayrağa malik olması da onun xoşbəxtliyi və mənəvi haqqıdır. Çünki o bayrağı yenidən dalğalandıra bilmək səadəti xalqımızın azadlığa bəslədiyi sevgidən qaynaqlanan əzmkar və davamlı mübarizəsi ilə çoxsaylı qurbanlar bahasına gerçəkliyə çevrilib.

Bayrağımızı hər bir azərbaycanlının qürur mənbəyinə çevirən də bu müqəddəs rəmzin xalqımızın mübariz ruhunun simvolu olmasıdır. Bu ruh xalqımızın tarixi boyunca nəsildən-nəslə ötürülmüş, zaman-zaman öz qüdrətini daha da artırmışdır. Məhz mübarizlik və yenilməzlik ruhu sayəsində tarixin bütün dönəmlərində Azərbaycan dövlətçiliyi öz kökləri ilə keçmişinə bağlı olmuş, tarixi ilə birgə yaşamağı, əski dövrü ilə yeni dövrünün vəhdətini yaratmağı bacarmışdır. Ona görə də Azərbaycan dövlətçiliyi milli siyasət və ideologiyanın ən mühüm simvolu olan tarixi bayraq ənənəsində də özünün maddi, mənəvi və siyasi mədəniyyətinin əsas özəlliklərini, başlıcası isə ölməz milli ruhunu bu gün də yaşatmaqdadır.

Böyük şairimiz Bəxtiyar Vahabzadənin “Bayraq” şeirində deyildiyi kimi:

Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı Vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.
Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq – öz yurduma öz hakimliyim.

Bayrağımız milli vəhdətimizin rəmzidir. Bu vəhdət bizim üçrəngli bayrağımızı daha uca zirvələrə qaldıracaq və onu Qarabağa, Şuşaya və Xankəndinə daşıyacaqdır. Azərbaycanın əbədi varlığını təcəssüm etdirən bayrağımız bir daha nəinki enməyəcək, müstəqilliyimizin və tərəqqimizin ulduzu kimi daim parlayacaq!

## “İstedadlar sorağında” baxış-müsabiqəsinə başlanılıb

***Naxçıvan Dövlət Filarmoniyasında “İstedadlar sorağında” devizi altında bir ay davam edəcək özfəaliyyət kollektivlərinin baxış-müsabiqəsinə dünən start verilmişdir.***



Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən baxış-müsabiqənin məqsədi muxtar respublikada fəaliyyət göstərən mədəniyyət evi və klub müəssisələrində milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və təbliğ olunması, xüsusi istedada malik uşaq və yeniyetmələrin üzə çıxarılması, bədii özfəaliyyət kollektivlərinin inkişafına kömək etməkdir.

Baxış-müsabiqəni Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi aparatının rəhbəri Gülbuta Babayeva giriş sözü ilə açaraq muxtar respublikada mədəniyyətə və incəsənətə göstərilən qayğıdan danışmış və iştirakçılara uğurlar arzulamışdır. Qeyd edilmişdir ki, baxış-müsabiqənin şərtlərinə görə müsabiqədə 10 yaşından 30 yaşınadək istedadlı və ifaçılıq qabiliyyəti ilə seçilən şəxslər xalq və bəstəkar mahnıları, muğamlar, rəqslər, səhnəciklərlə çıxış edə bilərlər. Münsiflər heyəti iki turdan ibarət olacaq baxış-müsabiqədə həm də iştirakçıların ifaçılıq məharəti ilə yanaşı, onların səhnə mədəniyyətini və geyimlərini də nəzərə alacaqdır. Baxış-müsabiqənin nəticələri məlum olandan sonra dekabr ayının ortalarında qaliblərin iştirakı ilə yekun konserti təşkil ediləcək və qaliblərə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin diplomları və fəxri fərmanları təqdim olunacaq.

Sonra baxış-müsabiqədə Ataxan Quliyevin ifa etdiyi “Mahur” təsnifi, “Sarı gəlin” xalq mahnısı, Yamil Vəliyevin ifasında “Üç gündən bir, beş gündən bir” xalq mahnısı, Arzu Səfərovun ifasında Tofiq Quliyevin “Sənə də qalmaz”, Türkan Rzayevin ifasında Ələkbər Tağıyevin “Kaş ki gözəl olmayaydın”, Şəfiqə Axundovanın “Nədən oldu” mahnıları səsləndirilmişdir.

Sonda münsiflər heyətinin üzvləri – Azərbaycan Respublikasının Xalq artisti Həsən Ağasoy, Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev baxış-müsabiqənin iştirakçılarının çıxışları haqqında fikir və rəylərini bildirmişlər. Münsiflər heyətinin qərarına əsasən, Ataxan Quliyev, Arzu Səfərov, Türkan Rzayev baxış-müsabiqənin II turuna vəsiqə qazanmışlar. Yamil Vəliyevin ifası əsasnamə şərtlərinə uyğun gəlmədiyi üçün o, II tura buraxılmamışdır.

Qeyd edək ki, I turun növbəti çıxışları dekabrın 18-də Ordubad şəhərində olacaqdır.

**Əli RZAYEV**

## “Nuh yurdu” intellektual oyunu keçirilib

*Naxçıvan şəhərindəki Gənclər Mərkəzində 10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında “Nuh yurdu” intellektual oyunu keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi aparatının Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun məsləhətçisi Qabil Vəliyev çıxış ediblər. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirin məqsədi Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin milli mədəniyyətinin və tarixinin təbliği, gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir.

İntellektual oyunda ali və orta ixtisas təhsili müəssisələrindən 12 komanda iştirak edib. Finala “Şahdağ”, “Əlincə”, “Loğman” və “Buta” komandaları vəsiqə qazanıblar. Naxçıvan Dövlət Universitetinin “Əlincə” komandası birinci yerə layiq görülüb. Naxçıvan Dövlət Universitetinin “Şahdağ” komandası ikinci, Naxçıvan Musiqi Kollecinin “Buta” komandası isə üçüncü olublar.

## Müsabiqənin qalibi “Karvan” komandası olub

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində 10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar şən və hazırcavablar klubları arasında müsabiqə keçirilib. Müsabiqənin keçirilməsində məqsəd gənclərin asudə vaxtlarının səmərəli təşkili, 10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar təsdiq olunmuş tədbirlər planının icrasının təmin edilməsi, gənclərin öz yaradıcılıq qabiliyyətlərini nümayiş etdirmələrinə şərait yaratmaq və istedadlı gənclərin üzə çıxarılmasıdır.

Müsabiqədə 5 təhsil müəssisəsinin eyni sayda komandası mübarizə aparıb. Müsabiqədən əvvəl çıxış edən Gənclər və İdman Nazirliyi aparatının Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun məsləhətçisi Qabil Vəliyev və Naxçıvan Dövlət Musiqili Dram Teatrının əməkdaşı Zakir Fətəliyev iştirakçılara uğurlar arzulayıb və oyunun şərtləri haqqında məlumat veriblər.

Müsabiqənin yekun nəticəsinə əsasən, Naxçıvan Dövlət Universitetinin “Karvan” komandası birinci olub. Digər iki pillədə isə Naxçıvan Dövlət Texniki Kollecinin “Zirvə” komandası və Naxçıvan Tibb Kollecinin “Loğman” komandası qərarlaşıb.

## 10-cu tur lider dəyişikliyi ilə yadda qalıb

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi kişilər arasında basketbol üzrə muxtar respublika çempionatında 10-cu turun oyunlarına yekun vurulub.

Bu tur lider dəyişikliyi ilə yadda qalıb. Belə ki, “Babək”-“Naxçıvan” oyununun təxirə düşməsindən “Ordubad” komandası maksimum istifadə edib. Onlar bu dəfə evdə “Sədərək” komandasını sınağa çəkiblər və meydanı 58:23 hesablı qələbə ilə tərk ediblər. Liderlər qrupunda yer alan “Culfa” komandası da turu qələbə ilə başa vurub. Düzdür, onlar səfərdə şərurlu həmkarları qarşısında çətinlik çəksələr də, son anda 2 xalı qazanmağa müvəffəq olublar – 32:34. Culfa basketbolçuları kimi, “Lokomotiv” də turu çətin qələbə ilə başa vurub. Səfərdə “Naxçıvan” Universiteti komandasının qonağı olan “Lokomotiv” qazandığı qələbə sayəsində turnir cədvəlində bir pillə irəliləyib – 31:36.

| S/N | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | Ordubad | 10 | 9 | 1 | 586-335 | 19 |
| 2. | Naxçıvan | 9 | 9 | 0 | 709-335 | 18 |
| 3. | Culfa | 10 | 6 | 4 | 488-462 | 16 |
| 4. | Lokomotiv | 10 | 5 | 5 | 359-401 | 15 |
| 5. | Babək | 9 | 5 | 4 | 389-365 | 14 |
| 6. | “Naxçıvan” Universiteti | 10 | 2 | 8 | 366-581 | 12 |
| 7. | Şərur | 10 | 2 | 8 | 263-439 | 12 |
| 8. | Sədərək | 10 | 1 | 9 | 339-581 | 11 |

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 863